İCBARİ TİBBİ SIĞORTA
SABAHA SAĞLAM ADDIMLAYAQ

# İcbari tibbi sığorta ilə göstərilən xidmətlərin sayında 30% artım olub




İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin (Agentlik) İdarə Heyətinin sədri Zaur Əliyev qurumun illik fəaliyyəti və strateji hədəfləri mövzusunda mətbuat konfransı keçirib.

İllik fəaliyyət göstəricilərinə görə əhalinin tibbi xidmətlərə əlçatanlığı, vətəndaşların sığortadan istifadəsi artan xəttlə davam edir. Ötən illə nisbətdə bu il pasiyentlərə göstərilən xidmət sayında **30%** artım müşahidə olunub.

Bu ilin yanvar-oktyabr aylarında **4,5 milyon şəxs** icbari tibbi sığorta çərçivəsində tibbi xidmət alıb. Bu o deməkdir ki, ölkə əhalisinin **47%-i** icbari tibbi sığortadan yararlanıb.







## Dövlət tibb müəssisələrində icra olunan əməliyyat və prosedur sayında artım müşahidə olunur.

Xidmətlər Zərfi ilə ölkədə geniş yayılmış, əlillik və ölüm riski yüksək olan xəstəliklərin stasionar şəraitdə cərrahi müalicəsi qarşılanır. Dövlət tibb müəssisələrində icra olunan **əməliyyat və prosedurların** sayında illər üzrə artım müşahidə edilir. Ötən il **354 260**, bu ilin 10 ayı ərzində isə **358 772** sayda əməliyyat və prosedur icra olunub. Əməliyyatların **74%-ni** planlı şəkildə icra olunanlar təşkil edib.

Ən çox icra olunan əməliyyatlar: ginekoloji, gözdə və ürək-damar sistemində aparılan əməliyyatlardır. Əməliyyatların ən çox icra edildiyi tibb müəssisələri sırasında ilk yerdə Kliniki Tibbi Mərkəz dayanır.

## Müqaviləli tibb müəssisələrinin sayı 152-yə çatdırılıb.

Özəl tibb müəssisələrində də sığortadan istifadə imkanları genişləndirilir. Ötən il **111 müqaviləli** tibb müəssisəsi var idisə, bu il daha **42** müəssisə ilə müqavilə bağlanaraq bu say **152-yə** çatdırılıb.

Hazırda müqaviləli tibb müəssisələrinin fəaliyyət göstərdikləri şəhər və rayonlar sırasında Bakı, Gəncə və Sumqayıt ilə yanaşı, **19 rayon** da var. Sözügedən tibb müəssisələrinin **80%-i** Bakı, Gəncə və Sumqayıt şəhərlərinin, **20%-i** isə regionların payına düşür. 2022-ci illə müqayisədə 2023-cü ildə özəl tibb müəssisəsinə verilən göndəriş sayında **17% artım** olub.

Özəl tibb müəssisələrində icra olunan əməliyyatların dəyəri Agentlik tərəfindən həmin tibb müəssisəsinə ödənilir. 2022-ci ildə 90 milyon manatdan çox vəsait ödənilmişdisə, bu il **2 dəfədən çox artaraq ödəniş 211 milyon manat** (bu ilin yanvar-noyabr ayları daxil olmaqla) təşkil etmişdir. Özəldə ən çox icra olunan əməliyyat və prosedurlar: ürək-damar və oftalmoloji əməliyyatlar, invaziv radioloji xidmətlər olub.

## Göndərişlərin verilməsi qaydasında dəyişiklik edilib.

Hazırkı qaydanın əsas fərqi və üstünlüyü ondan ibarətdir ki, vətəndaşa xidməti tibbi ərazi bölməsi (TƏB) dövlət xəstəxanasında göstərmək mümkün deyilsə, vətəndaşa seçim hüququ verilir. Belə ki, ya vətəndaş TƏB-dən kənarda yerləşən dövlət tibb müəssisəsini seçir, yaxud da özünün aid olduğu TƏB-in ərazisindəki müqaviləli özəl tibb müəssisəsini seçir.




## Xidmətlər Zərfi çərçivəsində qarşılanan tibbi xidmətlər

İcbari tibbi sığortanın tətbiqi **1829** tibbi xidmətlə başlayıb. Bu il isə onların sayı **81%** artaraq **3315-ə** çatıb. Yeni əlavə olunan transplantasiya əməliyyatlarının bu il ərzində sığorta çərçivəsində icra sayı isə artıq **23-**dür.

Xidmətlər Zərfinin təkmilləşdirilməsi üzərində işlənilir. Mərhələləli şəkildə ambulator müalicədə resept əsasında yazılan bəzi dərman vasitələrinin sığorta hesabına qarşılanması nəzərdə tutulur.

İlk il **ürək-damar sistemi**, 2-ci il **həzm sistemi**, növbəti ildə isə **tənəffüs sistemi xəstəlikləri** üçün dərman vasitələrini sığortaya daxil etmək hədəflənib.

## Sığortanın təbiqindən sonra Agentlik tərəfindən 349 sayda təcili tibbi yardım avtomobili alınıb.

Agentlik tərəfindən görülən bütün tədbirlər vətəndaşlara vaxtında, keyfiyyətli xidmətlərin

göstərilməsinə yönəlib. Bu səbəbdən də Agentlik xəstəxanaların maddi-texniki bazasının yaxşılaşdırılmasına dəstək göstərir. Sığortanın tətbiqindən əvvəl ambulanslara olan ehtiyacın ödənilən hissəsi 40% idisə, hazırda **64%** təşkil edir.

## İT infrastrukturunun qurulması vətəndaşların rahatlığına xidmət edir.

280 tibb müəssisəsində daxili internet şəbəkəsi qurulub, 180 tibb müəssisəsində fiber optik internet xətti çəkilib, 9800 kompüter dəsti quraşdırılıb, 5500 çap və şəbəkə avadanlığı quraşdırılıb. Tibb müəssisələrinə müraciət edən vətəndaşların aldıqları bütün tibbi xidmətlərin qeydiyyatı elektron formada aparılır.

## Maddi-texniki bazanın təkmilləşdirilməsi keyfiyyətli xidmətin göstərilməsi üçün əhəmiyyətlidir.

İnstrumental müayinələrin aparılması, mürəkkəb cərrahi prosedurların icrası üçün Agentlik tərəfindən 2022-2023-cü illər ərzində **54 milyon manatdan çox** məbləğdə avadanlıq alınıb. İcbari tibbi sığortadan əvvəl (2019-cu il) **45 milyon manat**, icbari tibbi sığortadan sonra 2023-cü ilin 11 ayı ərzində **120 milyon manatdan çox məbləğdə dərman/tibbi sərf** alınıb. Müasir tibbi avadanlıqlar müayinə zamanı yüksək keyfiyyətli görüntü əldə etməyə, xəstəliklərin dəqiq diaqnozunun təyininə, vaxtında aşkarlanmasına imkan verir.

## İşğaldan azad olunmuş ərazilərdə tibbi xidmətlərin təşkilinə xüsusi diqqət ayrılır.

İşğaldan azad olunmuş ərazilərdə səhiyyə sisteminin inkişafı, həmin ərazilərdə yaşayan və işləyən sakinlər üçün tibbi xidmətlərin təşkili məqsədilə Agentlik tərəfindən Şuşa, Zəngilan, Laçın, Ağdam və Hadrutda modul tipli xəstəxanalar quraşdırılıb. Gələn il Cəbrayıl və Qubadlı rayonlarında modul tipli xəstəxanaların quraşdırılması nəzərdə tutulub.

## Agentlik tərəfindən 5 illik dövrü əhatə edən strateji plan hazırlanır.



### İcbari tibbi sığortanın tətbiqinə dair

2024-2028-ci illər üçün strateji plan

**Hədəflərimiz**

- Əhalinin tibbi xidmətlərə olan ehtiyaclarının müəyyən olunması
- Xidmətlər Zərfinin təkmilləşdirilməsi
- Tibbi xidmətlərin ödəniş modellərinin təkmilləşdirilməsi
- Qeyri-rəsmi ödənişlərin qarşısının alınması yönündə tədbirlərin görülməsi
- Əlavə maliyyə mənbələrinin cəlb olunması
- Regional tibb müəssisələrinə yüksək ixtisaslı kadrların cəlb olunmasının təşviqi

**Gözlənilən nəticə**

- Tibbi xidmətlərin əhali üçün daha əlçatan olması və məmnunluğun artırılması
- Əhalinin maliyyə risklərindən mühafizəsi
- Yeni yaranmış maliyyə mənbəyi hesabına fondun gəlirlərinin artırılması
- Mövcud tibb müəssisələrinin fəaliyyətinin optimallaşdırılması